# Qadın hüquqları və məşğulluq

***Sirr deyil ki, bu gün ailə büdcəsinin artırılması üçün qadının qayğıları əvvəllər olmayan qədər çoxalmışdır. Bu, onun ailə iqtisadi funksiyalarını təşkil edir. İqtisadi ailə bütöv olduqda, hər iki valideyn, natamam ailədə isə qadın tərəfindən icra olunur.***

Fəlsəfə üzrə elmlər doktoru Rəna Mirzəzadə yazır: "Bu funksiyanın kökündə ailənin maddi təminatı, həddi-büluğa çatmamış və əmək qabiliyyətini itirmiş uşaqların iqtisadi müdafiəsi durur. İqtisadi funksiyaların icrası ailə büdcəsini kimin böldüyündən çox asılıdır. Bu iş qadına əlavə dəyər qayğıları gətirir, lakin onun nüfuzunu da artırır. Ailədə təsərrüfat-məişət funksiyaları da, əsasən, qadınların payına düşür və bütün bunlar onun ailə qayğılarını təşkil edir. Ailə qorunur, onda dəyərlər normallaşır, mənəviyyat aşınmadan xilas olur. Baxmayaraq ki, insanlar, əsasən, ailə təsərrüfatında yetişir və yaşayırlar, bu terminə dəqiq tərif vermək o qədər də asan deyildir. Ev təsərrüfatının əsas formasında nəsil artırmaq və uşaq tərbiyə etmək, yaşayış üçün zəruri olan vasitələri əldə etmək, gələcək nəsillərə cəmiyyətdə produktiv fəaliyyət üçün zəmin yaratmaqdır. Ev təsərrüfatı - cinsi tərbiyənin, bilik, bacarıq və sosial gözləmələrin, gender rolunun yeni nəslə ötürülməsi üçün bir özəkdir. Bu yükün də əsas ağırlığı qadının üzərinə düşür, onun ailədəki asılı sosial statusunda əksini tapır, onun professional hazırlığına və ictimai istehsalda məşğuliyyətinə təsir göstərir.

Həyat fəaliyyətinin müxtəlif sahələrində ailə üzvlərinin davranışının mənəvi reqlamentasiyası, eləcə də, ər-arvad, valideyn-uşaq, yaşlı nəsil nümayəndələri arasındakı münasibətlərdə məsuliyyət və məcburilik - ailədə ilkin sosial-nəzarət funksiyasını da, başlıca olaraq, qadın daşıyır. Məhz qadın ailədə birgəyaşayışı qaydaları pozulduqda, hüquqi və mənəvi sanksiyaların formalaşmasında və icrasında aparıcı rol oynayır. Odur ki, onun ailədəki statusundan bu funksiyanın icra effektliyi asılıdır.

Qadın onun çiyinlərinə düşən yuxarıdakı funksiyalardan başqa, həm də ailədə asudə vaxtın təşkili funksiyasını icra edir. Asudə vaxt - boş-bekar vaxt ötürülməsini istisna edən fəaliyyətin dəyişdirilməsidir. K.D.Uşinskinin sözlərinə görə "əgər insan asudə vaxtda nə ilə məşğul olacağını bilmirsə, onda onun başı, ürəyi və mənəviyyatı korlanır".

Asudə vaxt funksiyası boş vaxtın səmərəli istifadəsini təşkil etməyi, mənəvi ünsiyyəti, ailədə onun üzvləri arasında harmoniyanın qorunub-saxlanmasını nəzərdə tutur. Asudə vaxtın təşkili sosial funksiyadır, cəmiyyət qarşısında mənəvi borcdur, çünki ailənin möhkəmləndirilməsinə xidmət edir. Təəssüf ki, müasir dövrdə bu funksiyaya az diqqət yetirilir, atalar isə ona, demək olar ki, heç əhəmiyyət vermirlər".

Müasirləşmə və ailədə qadının çoxfunksiyalılıq rolu, çoxsaylı ailə qayğıları dəyərlərini aşınmadan qorumaq həm nəzəri, həm də əməli aspektdə onun mövqeyini təyin edən, eqalitar nəzəriyyəni real həyatda tətbiq etməyə şərait yaradan amildən asılıdır.

Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Konvensiyasında göstərilir:

1 İştirakçı-dövlətlər məşğulluq sahəsində qadınlar barəsində ayrı-seçkiliyi ləğv etmək məqsədilə kişi və qadınların bərabərliyi əsasında qadınların hüquqlarını bərabər, o cümlədən, aşağıdakı hüquqları təmin etmək müvafiq tədbirləri görürlər;

a) bütün insanların ayrılmaz hüququ olan əmək hüququ;

v) işə götürülərkən eyni imkanlara malik olmaq, o cümlədən işə, götürülərkən eyni meyarların tətbiq edilməsi hüququ;

s) azad surətdə peşə, yaxud iş növü seçmək, vəzifədə irəli və məşğulluğunun təminatı hüququ, eləcə də, iş bütün güzəştlərindən istifadə etmək, şagirdlik, səviyyəli peşə hazırlığı, ixtisasını müntəzəm axtarmaq daxil olmaqla, peşə hazırlığı və ixtisasını təkmilləşdirmə hüququ;

d) güzəştlər daxil olmaqla, bərabər haqq almaq, bərabər dəyərli əməyə görə bərabər şərtlər, həmçinin, işin keyfiyyətinin qiymətləndirilməsinə bərabər yanaşma hüququ;

c) sosial təminat, o cümlədən, pensiyaya çıxarkən, işsizlik, əlillik, qocalıq və əmək qabiliyyətini itirdiyi digər hallarda hüququ, həmçinin, ödənişli məzuniyyət hüququ;

f) sağlamlığın mühafizəsi və təhlükəsiz əmək şəraiti, o cümlədən, nəsil davamı funksiyasının saxlanması üzrə hüququ;

2. Qadınlar barəsində ərə getməyə və analığa görə ayrı-seçkilyin qarşısını almaq və onların əmək hüququna təsirli təminat vermək üçün iştirakçı-dövlətlər aşağıdakı müvafiq tədbirləri görürlər;

a) hamiləliyə, yaxud hamiləliyə və doğuşa görə məzuniyyətə görə işdən azad etməyi, yaxud işdən ailə vəziyyətinə görə ayrı-seçkilik qoyulmasını, sanksiya tətbiq etmək təhdidi ilə qadağan etmək;

v) əvvəlki iş yerini, vəzifə üstünlüyünü, yaxud sosial müavinətini itirmədən ödənişli məzuniyyətlər, yaxud hamiləliyə və doğuşa görə sosial müavinətlərlə müqayisə edilə bilən məzuniyyətlər tətbiq etmək;

s) valideynlərin ailədəki vəzifələrini yerinə yetirməklə yanaşı, əmək fəaliyyətini və ictimai həyatda iştirakını uyğunlaşdırmalarına, o cümlədən, uşaqlara qulluq üzrə müəssisələr şəbəkəsinin yaradılması və genişləndirilməsinə imkan verən əlavə sosial xidmətləri təşviq etmək;

d) qadınları, xüsusilə, hamiləlik dövründə, onların sağlamlığı üçün zərərli olduğu sübut olunmuş işlərdə müdafə etmək;

3. Bu maddədə bəhs edilən hüquqların maddəsinə dair qanunvericilik elmi-texniki biliklər baxımından, vaxtaşırı gözdən keçirilir, eləcə də, lazım olduğu qədər yenidən baxılır, ləğv edilir və yaxud genişləndirilir.

1. İştirakçı-dövlətlər qadınların kişi və qadınların bərabərliyi əsasında tibbi xidmət almasını, o cümlədən, ailənin həcmi məsələsinin planlaşdırılmasına dair təmin etmək üçün qadınlar barəsində səhiyyə sahəsində ayrı-seçkiliyin ləğv edilməsi üçün bütün müvafiq tədbirləri görürlər.

2. İştirakçı-dövlətlər bu maddənin 1-ci bəndindən asılı olmayaraq, lazım gəldikdə, pulsuz xidmətlər, eləcə də, hamiləlik və əmizdirmə dövründə müvafiq qida məhsulları ilə təchiz etməklə qadınlara hamiləlik, doğuş və doğuşdan sonrakı dövrlərdə müvafiq xidmətlər göstərilməsini təmin edirlər.

İştirakçı-dövlətlər qadınların kişilərlə bərabərliyi əsasında bərabər hüquqlarını, o cümlədən, aşağıdakı hüquqları təmin etmək məqsədilə qadınlar barəsində iqtisadi və sosial həyatın digər sahələrindəki ayrı-seçkiliyin ləğv edilməsi üçün bütün müvafiq tədbirləri görürlər:

a) ailə üçün müavinət hüququ;

b) daşınmaz əmlak üçün istiqraz, ssuda və digər formalarda maliyyə krediti almaq hüququ;

v) istirahətlə, idmanla məşğul olmaq və mədəni həyatın bütün sahələri ilə bağlı olan tədbirlərdə iştirak etmək hüququ;

1. İştirakçı-dövlətlər kənd yerlərində yaşayan qadınların qarşılaşdıqları xüsusi problemləri və ailələrin iqtisadi rifahının təmin edilməsində oynadıqları mühüm rolu, o cümlədən, təsərrüfatın qeyri-əmtəə sahələrindəki fəaliyyətini nəzərə alırlar və bu Konvensiyanın müddəalarının kənd yerlərində yaşayan qadınlar barəsində tətbiqini təmin etmək üçün bütün lazımi tədbirləri görürlər.

2. İştirakçı-dövlətlər kişi və qadınların bərabərliyi əsasında qadınların kənd rayonlarının inkişafında iştirak etmələrini və bu inkişafdan faydalanmalarını təmin etmək məqsədilə kənd rayonlarında yaşayan qadınlar barəsində ayrı-seçkiliyin ləğv edilməsi üçün bütün müvafiq tədbirləri görür, o cümlədən, onların aşağıdakı hüquqlarını təmin edirlər;

a) bütün səviyyələrdə inkişaf planlarının işlənib-hazırlanmasında iştirak etmək;

b) ailənin həcminin planlaşdırılması məsələlərinə dair informasiya, məsləhətlər və xidmət daxil olmaqla, müvafiq tibbi xidmətə yol tapmaq;

s) sosial sığorta proqramlarından, bilavasitə bəhərlənməkhazırlıq və funksional savad daxil olmaqla, bütün mal və qeyri-formal təhsil növlərinə yiyələnmək, həmçinin, icma xidmətinin bütün xidmət vasitələrindən kənd təsərrüfatına dair, o cümlədən, texniki səviyyələrini artırmaq üçün məsləhət xidmətindən istifadə etmək;

e) muzdlu iş, yaxud müstəqil əmək fəaliyyəti vasitəsilə iqtisadi imkanlara bərabər yol tapmağı təmin etmək üçün özünə yardım qrupları və kooperativlər təşkil etmək;

f) kollektiv fəaliyyətin bütün növlərində iştirak etmək;

g) kənd təsərrüfatı kreditlərinə və istiqrazlarına, satış sisteminə, müvafiq texnologiyaya yol tapmaq, torpaq islahatlarında, aqrar islahatlarda və torpaqların yenidən məskunlaşdırılması planlarında bərabər statusa malik olmaq;

h) lazımi həyat şəraitindən, xüsusilə, mənzil şəraitindən, sanitar xidmətindən, elektrik enerjisindən və su təchizatından, eləcə də, nəqliyyatdan və rabitə vasitələrindən istifadə etmək.

Ə.Süleymanov göstərir ki, hər bir xalqın tarixi yetkinləşmə və təkamül prosesinin ümdə qayəsini dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli-mənəvi irsi, pak və ali dəyərləri müəyyən edir. Bu ənənə və dəyərlər bir-biri ilə çulğaşaraq həm də xalqların məfkurə və düşüncə sisteminin, dünyagörüşünün parlaq təcəssümü kimi meydana çıxır. Dünyanın ən qədim xalqlarından sayılan azərbaycanlılar da tarixən formalaşmış zəngin milli-mənəvi və əxlaqi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermiş, ülvi və saf ideallara sarsılmaz bağlılığı ilə daim özünə məxsusluqlarını qorumuşlar. Şərqə məxsus mütərəqqi adət-ənənələrlə Qərbin mötədil dəyərlərinin mənəvi mədəniyyətindəki uğurlu harmoniyası həm də milli təfəkkürümüzdə fərqli dünyagörüşləri və mədəniyyətləri bir araya gətirir.

Qadınların IV Pekin Konfransının Fəaliyyət Platformasında göstərildiyi kimi, "hökumətlər etiraf edirlər ki, insanın bütün hüquqları bölünməz, qarşılıqlı asılı və qarşılıqlı əlaqəlidir".

Müstəqil Azərbaycanımızın sosial həyatında müşahidə olunan müsbət dəyişikliklərin əsası xalqımızın tələbi ilə Azərbaycanın ikinci müstəqilliyi dövründə yenidən iqtidara qayıtmış Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz Ulu Öndərimiz Heydər Əliyev Cənabları müdrikliklə sosiomədəni və sosiosiyasi problemlərə çox diqqətlə yanaşmışdır. 1994-cü ildən başlayaraq dövlətin qarşısında duran bu kimi məsələlərin həlli istiqamətində ardıcıl olaraq, Heydər Əliyev Cənabları öz siyasi xəttində belə problemlərlə bağlı xüsusi Fərman, Sərəncam və Qanunlar vermişdir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*